# ƏDƏBİ NOBEL KÜRSÜSÜ

**Birinci kitab**

## ƏDƏBİYYAT ÜZRƏ NOBEL MÜKAFATI LAUREATLARININ NİTQLƏRİ

Tərtib edən və nəşrə hazırlayan:
Nəriman ƏBDÜLRƏHMANLI

qanun nəşriyyatı

**Ədəbi Nobel kürsüsü.** Birinci kitab.
**Ədəbiyyat üzrə Nobel mükafatı laureatlarının nitqləri.**
Bakı, Qanun Nəşriyyatı, 2024, 400 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü:130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 13.05.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərtib edən və nəşrə hazırlayan: | Nəriman Əbdülrəhmanlı |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-961-6

© Qanun Nəşriyyatı, 2024

Kitabda ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən söz adamlarının nitqləri toplanıb. Ədəbi təcrübənin və yazıçı mətbəxinin sirlərini üzə çıxarmaq, bədii sözün qüdrətini dərk etmək, xüsusilə də ədəbi mühitdə əks-səda yaratmaq baxımından həmin mətnlər böyük təsir gücünə malikdir.

Nobel nitqləri toplusu ümumi auditoriya üçün nəzərdə tutulur.

## ***TƏRTİBÇİDƏN***

### SÖZÜN NOBEL KÜRSÜSÜ

Kimyaçı, mühəndis, ixtiraçı, iri silah istehsalçısı Alfred Nobelin *(1833–1896)* ağlına mükafat məhz bir təsadüf nəticəsində gəlib. 1888-ci ildə qardaşı Lüdviq Fransanın Kann şəhərində vəfat edəndə reportyorlar səhvən onu Alfredlə dəyişik salıb, qəzetdə "Ölüm taciri vəfat etdi" sərlövhəli nekroloq veriblər. Nekroloqu oxuyan A.Nobel bundan çox təsirlənib, bundan sonra bəşəriyyətin onu necə xatırlayacağı üzərində düşünməyə başlayıb, nəhayət, artıq hazır olan vəsiyyətnaməsini 1895-ci il dekabrın 27-də dəyişmək qərarına gəlib. O, 1896-cı il oktyabrın 10-da İtaliyanın San-Remo kurort şəhərində beyninə qan sızıb, dekabrın 10-da dünyasını dəyişib, az sonra, 1897-ci ilin yanvarında vəsiyyətnamə ictimaiyyətə açıqlanıb. Məlum olub ki, A.Nobel bütün əmlakının qiymətli kağızlara çevrilib etibarlı banka qoyulmasını, adına fond yaradılmasını, əldə edilən faizin il ərzində beş sahə *(fizika, kimya, fiziologiya, yaxud tibb, ədəbiyyat və sülh)* üzrə bəşəriyyətə ən çox fayda gətirən şəxslərə mükafat olaraq verilməsini vəsiyyət edib. Vəsiyyətnaməni onun varisləri narazılıqla qarşılayıb, ləğv olunmasına çalışsalar da, həmin il aprelin 26-da Norveç notariusu tərəfindən təsdiq edilib, nəticədə A.Nobelin katibi Raqnar Sulman və vəkili Rudolf Lilekvist Nobel Fondunu yaratmağa nail olublar.

A.Nobelin təlimatına əsasən, hər sahə üzrə Nobel mükafatını verən qurumlar *(o cümlədən, ədəbiyyat üzrə İsveç Akademiyası)* müəyyənləşdirilib, 1900-cü il iyunun 29-da isə Nobel mükafatlarının maliyyə və təşkilat işlərinə cavabdeh olan Nobel Fondu təsis edilib. Fondun kapitalı 31.6 mln. *(indiki dəyəri ilə 165 mln. dollar)* idi ki, onun da 12 faizi Bakı neftindən əldə edilən gəlirin payına düşürdü.

Nizamnaməsinə görə, Nobel mükafatına ancaq ayrı-ayrı şəxslər *(sülh sahəsindən başqa)* layiq görülə bilərlər. Komitə üzvləri iddiaçılar arasından layiqli namizəd tapa bilməsələr, vəsait növbəti ilə saxlanır, növbəti il də müsbət nəticə alınmasa, Fonda qaytarılır. İlk mükafatların məbləği 150.000 kron (indiki hesabla 7.87 mln) idi, 2012-ci ildə 1.1 mln., hazırda isə 1.4 mln. ABŞ dolları həcmindədir.

Nobel Fondunun 1901-ci ildən başlayaraq, hər il Ədəbiyyat sahəsindəki nailiyyətlərə görə, *"idealist tərzdə"* yazan *(ədəbiyyatşünasların fikrincə, Lev Tolstoy, Anton Çexov, Ceyms Coys, Marsel Prust, Henrik İbsen, Henri Ceyms, Tomas Vulf, Frans Kafka, Akutaqava Rünöske, Çingiz Aytmatov... kimi yazıçıların həmin mükafata layiq görülməməyinin səbəbi də məhz "idealist tərzdə" yazmamalarıdır)* qələm sahiblərinə təqdim etdiyi Nobel mükafatı İsveç Akademiyasının seçdiyi beş üzvdən ibarət komitənin təqdimatı ilə verilir. İsveç Akademiyası hər il oktyabrın 7-də qalibin adını elan edir, adət üzrə, dekabrın 7-də yeni laureat Akademiya üzvləri arasında Nobel mühazirəsi oxuyur, həyat, ədəbiyyat, yaradıcılıq və aləmdə baş verən hadisələrlə bağlı düşüncələrini bölüşür, dekabrın 10-da – Alfred Nobelin vəfatının ildönümündə – isə Stokholmda laureatlara İsveç kralı, kral ailəsinin və Akademiya üzvlərinin, adlı-sanlı qonaqların iştirakı ilə Nobel medalı, diplom və pul mükafatı təqdim edilir və laureat ənənə üzrə nitq söyləyir. Bu qaydalar nadir hallarda dəyişir. Nitqlər və mühazirələr isə ədəbi və ictimai çəkisinə görə daim diqqəti cəlb edir.

Ədəbiyyat üzrə ilk laureatlar Rene Sülli-Prüdomm *(1901, Fransa),* Teodor Mommzen *(1902, Almaniya)* Nobel mühazirəsi və nitqi ilə çıxış etməyiblər. Beləliklə, Nobel kürsüsündə ilk nitqi söyləmək 1903-cü ildə laureat adına layiq görülmüş Norveç yazıçısı Byörnstorne Byörnsona qismət olub. Frederik Mistral *(Fransa, 1904),* Xose Eçegaray-i-Eysagirre *(1904, İspaniya),* Henrix Senkeviç *(1905, Polşa),* Cozue Karduççi *(1906, İtaliya),* Redyard Kiplinq *(1907, İngiltərə)* bu xoşbəxtliyi yaşaya bilməsələr də, Rudolf Eyken *(1908, Almaniya)* və Nobel mükafatı alan ilk qadın yazıçı, isveçli Selma Lagerlöf *(1909)*

Nobel kürsüsündən mühazirə oxumaq səadətinə qovuşublar.

Sonrakı onillikdə Paul Heyze *(1910, Almaniya),* Moris Meterlinq *(1911, Belçika)* xəstəlik və ya başqa səbəblər üzündən Stokholma gedə, təqdimetmə mərasimində çıxış edə bilməyiblər, Herhardt Hauptmann *(1912, Almaniya)* qısa nitqində öz yaradıcılığından daha çox İsveç Akademiyasının xeyirxah fəaliyyəti üzərində dayanıb, Rabindranat Taqor *(1913, Hindistan)* isə mükafatını Böyük Britaniyanın İsveçdəki səfiri vasitəsilə alıb, Nobel Mükafatları Komitəsinə belə bir teleqram vurub: *"Sizin uzağı yaxına, yadı qardaşa çevirən təfəkkürünüzün genişliyini minnətdarlıqla dəyərləndirirəm".*

1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması, 1918-ci ildə isə dünyada baş verən siyasi çalxantılar ilə əlaqədar digər mükafatlar kimi, Ədəbiyyat üzrə mükafat da verilməyib. Ağır müharibə illərində bu mükafata layiq görülən Vörner fon Heydenştam *(1916, İsveç),* Karl Gellerup *(1917, Danimarka)* və müharibədən sonra ilk laureat Karl Şpittelerə *(1919, İsveçrə)* və Xasinto Benavente-i-Martinezə *(1922, İspaniya)* təqdimetmə mərasimində nitq söyləmək qismət olmayıb. 1920-ci ildə bu nüfuzlu mükafata layiq görülən Norveç yazıçısı Knut Hamsun 20 il sonra Nobel medalını Faşist Almaniyasının təbliğat naziri Göbbelsə təqdim edib.

Anatol Frans *(1921, Fransa)* və Vilyam Batler Yeyts *(1923, İrlandiya)* Nobel kürsüsündən çıxışları ilə ədəbi cameəni şərəfləndirsələr də, Mükafatlar Komitəsi yenidən uğursuzluqla üzləşib və Vladislav Reymont *(1924, Polşa)* xəstəliyi ucbatından, Bernard Şou *(1925, İngiltərə)* hər cür mükafatın prinsipial əleyhdarı olduğuna görə laureatların ənənəvi çıxışları baş tutmayıb. Qrasiya Deledda *(1926, İtaliya)* isə ilk dəfə böyük auditoriya qarşısına çıxdığından həyəcanlanıb, yalnız bir neçə kəlmə ilə Komitə üzvlərinə minnətdarlığını bildirib.

1927–1930-cu illərdə təqdimetmə mərasiminin ənənəsi davam etsə də, Komitə bəzi sürprizlərlə də qarşılaşıb. Məsələn, şair Erik Karlfeldt *(1930, İsveç)* Ədəbiyyat üzrə Nobel mükafatı Komitəsinin üzvü olduğuna görə, laureat adından boyun qaçırıb, təbii ki, mühazirə də oxumayıb, üstəlik, az sonra vəfat edib, nəticədə mükafat onun ailəsinə

təqdim edilib. Növbəti laureat Con Qolsuorsi *(1932, İngiltərə)* xəstəliyi üzündən mərasimdə iştirak edə, Nobel kürsüsünə qalxa bilməyib. Mərasimdə iştirak edən və mühazirə söyləyən Siqrid Unset *(1928, Danimarka)* və Luici Pirandellinin *(1934, İtaliya)* çıxışlarının mətnini isə araşdırıcılar indiyədək əldə edə bilməyiblər.

1935-ci ildə digər sahələr üzrə Nobel mükafatı laureatları müəyyənləşdirilsə də, ədəbiyyat üzrə mükafat verilməyib. Növbəti ildə isə Amerika dramaturqu Yucin O'Nil Nobel kürsüsünə qalxsa da, 1937-ci il laureatı Masrten dü Qarın *(Fransa)* Stokholm mərasimində iştirak edib-etmədiyi barədə məlumat tapmaq çətindir. Frans Sillanpaa *(1939, Finlandiya)* isə mükafata çox çətin vaxtda – İkinci Dünya müharibəsinin başlandığı dövrdə – sahib olub, mövcud vəziyyətlə bağlı təqdimetmə mərasimi təxirə salındığına görə, diplomunu yalnız həmin ilin dekabrında İsveç Elmlər Akademiyasının iclasında ala bilib və qısa minnətdarlıq nitqi ilə çıxış edib.

Avropanı bürümüş müharibə fəlakəti üzündən Nobel Mükafatları Komitəsi öz fəaliyyətini müvəqqəti olaraq dayandırıb, beləliklə, 1940–1943-cü illərdə digər sahələr kimi, ədəbiyyat üzrə də laureatlar müəyyənləşməyib. Yalnız müharibədə dönüş yaranandan, 1944-cü ildə ikinci cəbhə açılandan sonra Komitə işini bərpa edib və dörd illik fasilədən sonra Vilhelm Yensen *(1944, Danimarka)* növbəti laureat kimi Nobel kürsüsünə qalxmaq imkanı qazanıb. Müharibə illərinin son laureatı adını isə Latın Amerikası ədəbiyyatının ilk nümayəndəsi Qabriela Misrtal *(1945, Çili)* qazanıb.

İkinci Dünya müharibəsindən sonra da ənənəvi Nobel mühazirələrində müxtəlif maneələr özünü göstərib. Məsələn, Andre Jid *(1947, Fransa)* xəstəliyi ucbatından təqdimetmə mərasiminə gedə bilməyib, onun çıxışını Fransanın İsveçdəki səfiri oxumalı olub, Bertran Rassel *(1950, İngiltərə)* irihəcmli mühazirəsini insan təbiətinə – hakimiyyətsevərliyə həsr edib, Pör Lagerkvist *(1951, İsveç)* isə çıxışdan boyun qaçırıb, əvəzində "Bəşəriyyətin mifi" əsərindən bir parça oxumaqla kifayətlənib. 1953-cü ildə mükafat gözlənilmədən *"tarixi və bioqrafik təsvirinə, parlaq nitqinə görə"* siyasətçi Vinston

Çörçillə təqdim olunub, lakin həmin vaxt onun bir tərəfi iflic olduğu üçün təqdimat mərasimində iştirak edə bilməyib. 1956-cı ildə laureat adı qazanan Xuan Ximenes həyat yoldaşı rəhmətə getdiyinə görə, mərasimdə iştirak edə bilməyib, Stokholmda onun qısa təşəkkür məktubunu Puerto-Rika universitetinin rektoru oxuyub. Məşhur rus şairi Boris Pasternak *(1958, SSRİ)* dövlət tərəfindən siyasi təzyiqlərə məruz qaldığı üçün mükafatdan imtina etmək məcburiyyətində qalıb, diplomu və medalı yalnız 1989-cu ildə oğluna təqdim edilib. İtalyan şairi Salvatore Kavazimodo *(1959)* Nobel kürsüsündən "Şair və siyasətçi" adlı mühazirə oxusa da, onun mətnini əldə etmək mümkün olmadı.

Ötən əsrin 60-70-ci illərində dünyada hökm sürən nisbi sakitlik Nobel mükafatlarının ənənəvi təqdimetmə mərasiminə də öz təsirini göstərdi. Bununla belə, müəyyən gözlənilməz hadisələr də baş verirdi. Məsələn, 1964-cü ildə bu nüfuzlu mükafata layiq görülmüş fransız yazıçı Jan-Pol Sartr mənəvi prinsiplərini əsas gətirib laureat adından imtina etdi və İsveç Elmlər Akademiyasının ünvanına məktub göndərməklə kifayətləndi, 1966-cı ildə ədəbi aləm ikinci dəfə qaliblər tandemi ilə tanış oldu, mükafatın qalibi iki yəhudi qələm sahibi – İsraildə yaşayan Şmuel Aqnon və İsveçdə məskunlaşmış Nelli Zaks – elan edildi, N.Zaks Aqnonun İsrail dövlətini, özünün isə yəhudi xalqının faciəsini təmsil etdiyini söylədi, 1969-cu ilin qalibi irland nasir və dramaturq Semyuel Bekket təqdimat mərasimində iştirak etmədi, diplomu və medalı fransız naşiri J.Lindona təqdim olundu.

1973-cü ildə isə yeni laureat Avstraliya yazıçısı Patrik Vaytın əvəzində Nobel kürsüsünə həmvətəni olan rəssam S.Nolan çıxıb onun minnətdarlığını çatdırdı. 1974-cü ildə də mükafat iki nəfər – isveçli yazıçılar Eyvind Yonson və Xarri Martinson arasında bölüşdürüldü, Nobel kürsüsünə E.Yonson çıxıb özünün və qələm dostunun adından çıxış etdi. Hər iki yazıçının, eləcə də mükafatın növbəti laureatları Eugenio Montale *(1975, İtaliya)*, Sol Bellounun *(1976, ABŞ)* təqdimat mərasimindəki mühazirələrinin mətnini əldə etmək, təəssüf ki, mümkün olmadı. 1977-ci ildə isə mükafata layiq görül-

müş ispan şairi Vinsente Aleysandre xəstəliyi üzündən Stokholma gedə bilmədi, onu Nobel kürsüsündə minnətdarlıq nitqi söyləyən X.X.Pedron əvəz etdi. 1979-cu ilin laureatı Odissas Elitis *(Yunanıstan)* isə təqdimetmə mərasimində mükafatın ona deyil, Yunanıstana verildiyini qeyd etdi.

80–90-cı illərdə Nobel mükafatı ədəbiyyatda yeni adların populyarlaşmasına səbəb oldu. Yazıçı və filosof Elas Kanetti *(1981, Avstriya),* şair Yaroslav Seyfert *(1986, Çexoslovakiya),* nasir Klod Smon *(1985, Fransa),* yazıçı-dramaturq Vole Şoyinka *(1986, Nigeriya),* dramaturq Dario Fo *(1997)* qalib elan olunandan dərhal sonra dünyada saysız-hesabsız oxucu qazandılar. Nəcib Məhfuz *(1988)* səhhəti ilə əlaqədar mükafatın təqdimetmə mərasimində iştirak etməyib, onun əvəzində mühazirəsini nümayəndəsi oxudu, V.Şoyinka Nobel kürsüsündən mühazirəsini başdan-başacan Nelson Mandelaya həsr etdi.

Yeni əsrin ilk onilliklərində isə ədəbiyyat üzrə Nobel mükafatı laureatlarının, ədəbi janrların əhatə dairəsi daha da genişləndi, ədəbi aləmə gözlənilməz imzalar təqdim olundu, adları, az qala, hər il iddiaçılar siyahısında çəkilən Haruki Murakami, Salman Rüşdi, Stiven Kinq, Umberto Eko, Mişel Velbek kimi müəlliflər qaliblər siyahısına düşə bilmədilər. Əvəzində 87 yaşlı Doris Lessinq *(2007, Böyük Britaniya),* yazıçı və tərcüməçi Jan-Mari Güstav Leklezio *(2008, Fransa),* 80 yaşlı şair Tumas Tranströmer *(2011, İsveç),* hekayə ustası Elis Munro *(2013, Kanada),* müğənni və mətn müəllifi Bob Dilan *(2016, ABŞ)* nüfuzlu mükafatın sahibi oldular. E.Munro xəstəliyi üzündən təqdimetmə mərasiminə gedə, çıxış edə və mühazirə oxuya bilmədi, J.-M.G.Leklezió isə mühazirəsində mütaliədən və Cənubi Amerika cəngəlliklərində rastlaşdığı nağılçı Elviradan söz açdı.

2018-ci ildə mükafatla bağlı olaraq yaranan qalmaqal səbəbindən münsiflər heyətinin bir çox üzvü istefa verdi. Ədəbiyyat üzrə Nobel mükafatının verilmə mərasimi isə ləğv edildi. Birillik fasilədən sonra 2018 və 2019-cu illər Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülənlərin adları 2019-cu ilin oktyabrında açıqlandı. Son iki ilin

seçimi - Əbdülrəzzaq Qurna *(Tanzaniya)* və Anni Ernonun *(Fransa)* Nobel mükafatına layiq görülmələri ədəbi aləmdə heç də birmənalı qarşılanmadı.

Bütün hallarda bu uzunömürlü və nüfuzlu mükafat ədəbiyyatın inkişafına danılmaz təsir göstərir. Ümid edirik ki, əksər laureatların mühazirə və nitqlərindən ibarət bu toplu da oxucular tərəfindən maraqla qarşılanacaq.

# 1901

## RENE SÜLLİ PRÜDOM

***(FRANSA)***

**Rene Sülli-Prüdom** *(fr. Sully-Prudhomme; əsl adı Rene Fransua Arman Prüdom; fr. René François Armand Prudhomme; 1839–1907)* – şair, “böyük ədəbi məziyyətlərinə, ali idealizminə, bədii mükəmməlliyinə və səmimilik ilə istedadın qeyri-adi tərzdə bir-birini tamamladığına görə” Ədəbiyyat üzrə Nobel mükafatı laureatı.



R.Sülli-Prüdom Parisdə doğulub, ilk təhsilini Bonapart liseyində almışdır. Dəqiq elmlərə, xüsusən də riyaziyyata marağı böyük olub, liseyi bitirəndən sonra mühəndis ixtisasına yiyələnmək üçün məşhur Politexnik məktəbə daxil olmaq istəsə də, səhhəti buna imkan verməyib, erkən gəncliyindən “həyat universitetləri” keçib, ilk poetik məcmuəsi – “Stanslar və şeirlər” kitabını 1865-ci ildə çap etdirib, sonra özünü bütünlüklə ədəbiyyata həsr edib.

R.Sülli-Prüdomun “Avgi tövlələri” *(1866),* “İtalyan cizgiləri” *(1868),* “Tənhalıq” *(1869)* poetik topluları onu ədəbi dairələrdə daha yaxşı tanıdıb. 1870-ci ildə onun hərbi-vətənpərvərlik ruhlu şeirlərinin toplandığı “Hərb təəssüratları” kitabı çap edilir və böyük populyarlıq qazanır. Sonralar qələmə aldığı “Ədalət” *(1878),* “Xoşbəxtlik” *(1888)* poemalarında şair bəşəriyyətin taleyindən narahatlığını ifadə edib.

R.Sülli-Prüdom “Ədəbi vəsiyyət” kitabında *(1900)* klassik fransız poeziyası ənənələrinə tərəfdar çıxıb, sərbəst şeirə, simvolistlərin axtarışlarına və dekadans ədəbiyyatına tənqidi